UDC: 355.
LBC: 68.4; 68.49(4\8); 63.3(0=…)
MJ № 253
10.33864/2617-751X.2025.v8.i1.54-73

The Impact of “Soft Power” Means on the Hybridization of Modern Wars

Mahammad Akbarov*

Abstract. Modern wars are experiencing a period of serious transformation. The dominance of “hard power” inherent in classical wars has come to an end. This is due to the increased influence of non-military threats on global security. In this case, the increasing role of information, economic, demographic, cultural, political, financial and other factors, along with military power, allows states to use a wider set of tools in solving their problems. As a result, the role of military methods as the main means of solving problems in interstate relations is limited, and states have to use additional resources and war fronts. New forms of struggle are characterized as “hybrid war” and “soft power”. The article widely uses general logical cognitive methods: synthesis, analysis, induction and deduction.

Keywords: modern wars, hybrid warfare, soft power, “Gray zone”, hybrid threat

* Doctor of Philosophy in Philosophy,
Dissertation student of the National Defense University; Baku, Azerbaijan
E-mail: court.akberov@gmail.com
https://orcid.org/0009-0007-6863-9707

To cite this article: Akbarov, M. [2025]. The Impact of “Soft Power” Means on the Hybridization of Modern Wars. *“Metafizika” journal, 8*(1), pp.54-73.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.54-73

Article history:
Received: 07.12.2024
Accepted: 03.03.2025

УДК: 355.
ББК: 68.4; 68.49(4\8); 63.3(0=…)
MJ № 253
10.33864/2617-751X.2025.v8.i1.54-73

Влияние Средств «Мягкой Силы» на Гибридизацию Современных Войн

Магомед Акбаров*

Абстракт. Современные войны переживают период серьезной трансформации. Закончилось господство «жесткой силы», характерное для классических войн. Это связано с усилением влияния невоенных угроз на глобальную безопасность. В таком случае повышение роли информационных, экономических, демографических, культурных, политических, финансовых и других факторов наряду с военной мощью позволяет государствам использовать более широкий набор инструментов в решении своих проблем. В результате роль военных методов как основного средства решения проблем в межгосударственных отношениях ограничивается, государства вынуждены использовать дополнительные ресурсы и фронты войны. Новые формы борьбы характеризуются как «гибридная война» и «мягкая сила». В статье широко использовались общие познавательные методы: синтез, анализ, индукция и дедукция.

Ключевые слова: современные войны, гибридная война, мягкая сила, “серая зона”, гибридная угроза

---

* доктор философии по философии
Диссертант Национального Университета Обороны; Баку, Азербайджан
E-mail: court.akberov@gmail.com
https://orcid.org/0009-0007-6863-9707

Цитировать статью: Акбаров, М. [2025]. Влияние Средств «Мягкой Силы» на Гибридизацию Современных Войн. *Журнал «Metafizika»*, *8*(1), с.54-73.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.54-73

История статьи:
Статья поступила в редакцию: 07.12.2024
Отправлена на доработку: 10.01.2025
Принята для печати: 03.03.2025

UOT: 355.
KBT: 68.4; 68.49(4\8); 63.3(0=…)
MJ № 253
10.33864/2617-751X.2025.v8.i1.54-73

Müasir Müharibələrin Hibridləşməsinə “Yumşaq Güc” Vasitələrinin Təsiri

Məhəmməd Əkbərov*

Abstrakt. Müasir müharibələr ciddi transformasiya dövrünü yaşayır. Klassik müharibələrə xas olan “sərt güc”ün dominantlığına son qoyulub. Bu, qlobal təhlükəsizliyə qeyri-hərbi təhdidlərinin təsir imkanlarının artması ilə əlaqədardır. Belə olan təqdirdə hərbi güclə yanaşı informasiya, iqtisadi, demoqrafik, mədəni, siyasi, maliyyə və s. amillərin rolunun artması dövlətlərə öz problemlərinin həllində daha geniş vasitələr dəstindən yararlanmağa imkan verir. Nəticədə dövlətlərarası münasibətlərdə problemlərin əsas həlli vasitəsi kimi hərbi metdoların rolu məhdudlaşır, dövlətlər əlavə resurslardan və müharibə cəbhələrindən istifadə etməli olurlar. Yeni mübarizə formaları “hibrid müharibə” və “yumşaq güc” kimi xarakterizə edilir. Məqalədə ümumməntiqi idrak metodlarından: sintez, analiz, induksiya və deduksiyadan geniş istifadə edilib.

Açar sözlər: müasir müharibələr, hibrid müharibə, yumşaq güc, Boz zona, hibrid təhdid

---

* fəlsəfə üzrə fəlsəfə doktoru,
Milli Müdafiə Universitetinin dissertantı; Bakı, Azərbaycan
E-mail: court.akberov@gmail.com
https://orcid.org/0009-0007-6863-9707

Məqaləyə istinad: Əkbərov, M. [2025] Müasir Müharibələrin Hibridləşməsinə “Yumşaq Güc” Vasitələrinin Təsiri. *“Metafizika” jurnalı, 8(1),* səh.54-73.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.54-73

Məqalənin tarixçəsi:
Məqalə redaksiyaya daxil olmuşdur: 07.12.2024
Təkrar işlənməyə göndərilmişdir: 10.01.2025
Çapa qəbul edilmişdir: 03.03.2025

1.Giriş

Yumşaq güc- qeyri-hərbi metodlarla dövlətin öz siyasətini, ideologiyasını, mənəvi-əxlaqi dəyərlərini heç bir fiziki məcburiyyət tətbiq etmədən qəbul etdirmək bacarığıdır. Dövlət öz siyasətini məcburiyyət və şantaj yolu ilə deyil, əlverişlilik, cazibədarlıq və faydalılıq baxımından asanlıqla yaya bilir və ya öz ətrafına yeni-yeni tərəfdaşlar toplaya bilir.

Hibrid müharibə anlayışına gəlincə, müasir politologiyada bu problem ətrafında cidddi fikir ayrılıqları hökm sürür. Lakin görünən odur ki, bu müharibə iki tərkibin – ağır və yumşaq gücün inteqrativ tətbiqini nəzərdə tutur və bu tərkiblər arasında tarazlaşdırılmış vəziyyəti təmin edir. Bu tip müharibələr silahlı qarşıdurma ilə yanaşı, düşmən tərəfə öz iradəsini qəbul etdirmək, onun hərbi potensialını zəiflətmək və öz mövqelərini möhkəmləndirmək məqsədilə iqtisadi, diplomatik, elmi-texniki, informasiya, ideoloji, psixoloji vasitə və üsullardan kompleks şəkildə istifadə edilir.

Belə demək mümkündürsə, siyasətin zorakı yollarla davamı yalnız hərbi vasitələrlə deyil, həm də qeyri-hərbi vasitələrin tətbiqi ilə həyata keçirilməkdədir [Бартош, 2018, s.1]. Bu baxış son bir əsr yarım hərb sənətində hökm sürmüş Klauzeviç irsinin demontajına gətirib. Prussiyalı mütəfəkkirin müharibə haqqında klassik baxışları radikal dəyişikliyə məruz qalıb. Bu dəyişiklik bir sıra parametrlərə görə: qlobal təhlükəsizlk mühitinin transformasiyası, müasir müharibələrin aktorları, məqsədi, alətləri və döyüş səhnəsinin çoxölçülüyünə görə əsaslandırılır.

“Hibrid müharibə” anlayışı çox keçməmiş ortaya çıxsa da, bu, təbiətdə yeni bir hadisə deyil. Bu gün ibrid müharibəsinin aparılma vasitələri dəyişsə də, siyasi məqsədə nail olmaq üçün ənənəvi və qeyri-qanuni metodların birləşməsindən istifadənin əsas prinsipi münaqişənin köhnə formalarına uyğundur [Iskandarov, & Gawliczek, 2020, s.4].

2.Hibrid müharibələrin konsepsiyası

Hibrid müharibələr konsepsiyasının müəllifi olan Amerika hərbi nəzəriyyəçilərinin araşdırmalarına görə, müharibənin hibridləşdirilməsi müasir müharibələrin getdikcə daha mürəkkəb, çoxtəbəqəli bir fenomenə çevrilməsi deməkdir.

“Hibrid müharibələr”in inteqrativ xarakteri klassik hərbi zorakılığın qeyri-qanuni qarşıdurma formaları, xüsusən də terror fəaliyyəti, kiberhücumlar, iqtisadi və diplomatik sanksiyalar, informasiya təxribatı və bir sıra digər mümkün komponentlərlə birləşməsində özünü göstərir. Müasir konfliktlər çərçivəsində qarşıdurma dünya siyasətinin bütün məkanlarında, fiziki, informasiya, kibernetik, mədəni, koqnitiv müstəvidə aparıla bilər [Hoffman, 2007, s.8].

F.Hoffmanın müəllifi olduğu “hibrid müharibələr” terminini olduqca qısa müddətdən sonra hərbi nəzəriyyəçilər, alimlər və ekspertlər dünyada hərbi-

siyasi vəziyyətin inkişaf dinamikasıı ilə əlaqəli şəkildə izah etməyə başladılar. Həmin araşdırmaların nəticəsi olaraq, “hibrid müharibə”nin inikişafı aşağıdakı terminologiyalarla: hərbi; qeyri-hərbi; informasiya və iqtisadi təzyiq; kiberhücumlar; üsyançılar; terrorçular; qeyri-dövlət birləşmələri və s. sıx əlaqədə özünü büruzə verir. Qeyd edilənlərdən hər biri “hibrid müharibələr”in ayrıca texnologiyası/aləti qismində nəzərdən keçirilir. Məhz bu baxımdan hazırda “hibrid müharibələr”in vahid konseptual aparatı, eləcə də onu tənzimləyən hüquqi baza mövcud deyil. Mövcud normativ hüquqi baza bir çox dövlətlərdə “hibrid müharibələrin” müəyyən texnologiyalarına qarşı mübarizəni nəzərdə tutur.

Yumşaq güc müasir müharibələri hibridləşdirir, zorakılıq üzərində ağır gücün inhisarını aradan qaldırır. Məhz bunun nəticəsidir ki, “hibridləşmiş müharibə” məğlubiyyətə düçür olmuş ölkə işğal edilmədən, onun infrastrukturu dağıdılmadan və əhalisi kütləvi şəkildə qətlə yetirmədən qeyri-hərbi üsullarla həyata keçirilir. İnformasiya-kommunikasiya texnologiyaları maliyyə-iqtisadi, informasiya-psixoloji sferalarda cəmlənmiş təzyiq və kibersilahların istifadəsi minimum hərbi zorakılıq səviyyəsi ilə ölkənin xarici nəzarət altına düşməsinə imkan verir [Бартош, 2018, s.1].

“Hibrid müharibələr” ətrafında aparılan diskussiyalar tədricən yeni müharibə anlayışlarının meydana çıxmasına zəmin yaradıb. “Qeyri-ənənəvi” və ya “asimmetrik” müharibənin ardınca “hibrid” müharibə, daha sonra “qeyri-xətti”, şəbəkə, şəbəkə mərkəzli və s.-ri son illər ərzində aparılmış elmi tədqiqatların məhsulu hesab edilir.

Azərbaycanlı tədqiqatçılar V.Məmmədzadə və X.İsgəndərov bu qənaətə gəliblər ki, hibrid müharibənin konstruksiyası münaqişənin dəyişən xarakterini göstərir və ənənəvi düşüncəni yeni çağırışlarla üz-üzə qoyur. Bu, gələcək prioritetlərlə və həmin istiqamətdə investisiyanın yatırılması və qüvvələrin tətbiqi ilə bağlıdır. Hibrid münaqişə fiziki və konseptual metodların kombinasiyasını nəzərdə tutur. Birinci, silahlı düşmənə qarşı, ikinci, döyüş məkanındakı yerli əhalinin, eləcə də beynəlxalq ictimaiyyətin dəstəyinin qazanılması üçün aparılan mübarizədir [Məmmədzadə, & İskəndərov, 2020, s.59].

3.Hibrid müharibələrə yanaşmalar

Hibrid müharibə ilə əlaqədar yanaşmalar həddindən artıq çoxdur. Onların ümumiləşdirilməsi nəticəsində bu qənaətə gəlmək olur ki, hibrid müharibə ilə bağlı üç nöqteyi-nəzər üzərində dayanmaq məqsədəuyğundur. Birinciyə uyğun olaraq, hibrid müharibə bir dövlətin digər dövlətə və ya oradakı hakim rejimə qarşı düşmənçilik hərəkətlərinin müxtəlif hərbi, maliyyə, iqtisadi və sosial-siyasi vasitələrlə dəstəklənməsidir. Burada qeyd edilən dəstəyi hakim qüvvələrə qarşı müxaliflərə də vermək mümkündür.

İkinci yanaşmada bir dövlətin digər dövlətə qarşı hərbi və qeyri-hərbi hərəkətlərinin birləşməsi və sinxron istifadəsi nəzərdə tutur (bu yanaşma daha

çox hibrid xarakterli əməliyyatlara aiddir. Misal olaraq deyə bilərik ki, belə hərbi əməliyyatlar informasiya hücumları ilə paralel şəkildə aparılır. Belə ssenari əsasında Kosovoda əməliyyat həyata keçirilib).

“Hibrid əməliyyat gözlənilmədən təşəbbüsü ələ keçirmək və psixoloji üstünlüklər əldə etmək, diplomatik hərəkətlərdən, genişmiqyaslı və sürətli məlumatlardan, elektron və kiber əməliyyatlardan istifadə etməklə, iqtisadi təzyiqlə birlikdə hərbi və kəşfiyyat hərəkətlərini ört-basdır etmək və gizlətmək məqsədi daşıyan hərbi və qeyri-hərbi vasitələrin istifadəsinə əsaslanan inteqrasiya edilmiş bir kampaniyadır. Şübhəsiz ki, hərbi gücün tətbiqi ilə qısa müddət ərzində effektli hərbi üstünlüyə malik olmaq mümkün deyil. Tarixi təcrübə göstərir ki, çox zaman yumşaq güc resurslarının iştirakı olmadan əldə edilmiş üstünlük sonda məğlubiyyətlə nəticələnmişdir. Misal qismində 1990-cı ilin avqustunda İraqın Küveytə soxulmasını qeyd edə bilərik. 4 gün müddətində İraq Küveytin müqavimətini tam qırsa da, 7 aydan sonra oradan çıxarıldı. Hərbi cəbhədə İraq öz qalibiyyətini diplomatiya, informasiya-psixoloji sahədə məğlubiyyətini qurban vermiş oldu. Deməli hibrid müharibələrdə hərbi qələbəni yümşaq güc vasitələri daha da möhkəmləndirir. Və yaxud yumşaq güc vasitələrinin effektli tətbiqi düşmən cəbhəsində çaşqınlıq, ümidsizlik və daxili qarşıdurma yaratmaqla, hərbi gücün tətbiq imkanlarını genişləndirir və uğurunu təmin edir. İkinci Qarabağ müharibəsinədək Azərbaycan Ermənistana qarşı apardığı hibrid mübarizə formalarının hər birinin inkişafına ciddi yanaşmış, onların tərkibləri arasında balansın gözlənilməsinə nail olmuşdur. Nəticədə 2016-cı ilin aprelində keçirilmiş 4 günlük savaşda, 2020-ciilin iyulunda Tovuz hadisəsində və həmin ilin sentyabr ayının 27-də başlanmış 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri hibrid döyüş taktikasının köməyi ilə düşməni təslim etmiş, beynəlxalq informasiya məkanında erməni və ermənipərəst qüvvələri üstələmiş, proaktiv diplomatiyanın köməyi ilə Azərbaycana qarşı əks-cəbhənin genişlənməsinə imkan verməmişdir.

Nəhayət, üçüncü yanaşma əvvəlki hər iki yanaşmanın xüsusiyyətləri özündə birləşdirir. Bu, xüsusi təyinatlı qüvvələrin məhdud istifadəsi ilə müxtəlif qeyri-hərbi xarakterli düşmənçilik hərəkətlərinin toplusudur; multimodal və çoxvariantlı hərəkətlərin və münaqişələrin birləşməsidir.

Beləliklə, hibrid müharibə aparmağın əsas üsulları aşağıdakılardan ibarətdir ki, onların da mütləq çoxluğu “yumşaq güc” resurslarıdır:

- beynəlxalq aləmdə siyasi təzyiq;
- iqtisadi sanksiyalar;
- informasiya müharibələri;
- kibermüharibələr;
- düşmən ölkənin ərazisində xüsusi xidmət orqanlarının fəaliyyəti, müxalifəti, separatçıları, habelə terror təşkilatlarını himayə edən, cinayətkar

fəaliyyətlərin artırılmasına və nəticədə cinayətkar işbirliyinin yaranmasına yönəlmiş hərəkətlər (məsələn, narkotik vasitələrin və silahların qanunsuz dövriyyəsi, insan alveri, yetkinlik yaşına çatmayanların cinayət işinə cəlb edilməsi və s.).

Hibrid müharibələr həm hərbi, həm də qeyri-hərbi təsir alətlərini birləşdirməyə və onlardan həm hüquqi, həm də qeyri-qanuni sahələrdə istifadə etməyə imkan verir. Bu baxımdan, bu gün hüquqi baxımdan hibrid müharibənin nə olduğunu müəyyən etmək kifayət qədər çətindir. Çünki qeyri-nizami qüvvələr zorakılıqdan istifadə ilə bağlı heç bir hüquqi məhdudiyyətə məruz qalmır. Məhz bu səbəbdən bu gün hibrid müharibəyə qarşı mübarizənin beynəlxalq hüquqi aspektləri zəif inkişaf etməkdədir. Belə ətalət bir təfədən hibrid müharibənin çoxölçülü fenomen olması (onun konvensional və qeyri-konvensional tərkiblərinə qarşı təsirli mübarizənin mümkünsüzlüyü), digər tərəfdən böyük dövlətlərin siyasi maraqlarının bu müharibə adı altında maskalanması ilə əlaqədardır. Beynəlxalq hüquq müharibəni qadağan etmir, onun aparılmasının “ağır metodlarını” yasaqlayır. Bu isə, müharibələrin inkişafında yumşaq güc vasitələrinin tətbiq imkanlarını genişləndirir. Müharibələrin ağır güc vasitələrinin tətbiq imkanlarının məhdudlaşdırılması, yumşaq vasitələrin sərhədsiz təsir imkanlarına yol açır.

Hibrid təhlükələrə qarşı mübarizənin mürəkkəbliyi bir sıra səbəblərlə bağlıdır. Birincisi, hibrid təhdidlərin amorf təbiəti onları aşkara çıxarmağı çətinləşdirir.

İkincisi, hibrid təhdidlərin uzunmüddətli xarakter daşımaq qabiliyyəti onlara qarşı mübarizəyə xeyli vəsait sərf etməyə vadar edir, yəni bu mübarizə baha başa gəlir.

Üçüncüsü, hibrid təhdidlər real və virtual, fiziki və psixoloji sərhədləri bulandırır ki, bu da onların dərk edilməsini çətinləşdirir. Xüsusilə qeyd etmək lazımdır ki, “hibrid müharibələr” anlayışı faktiki müharibə sferası ilə siyasət sferası arasındakı sərhədləri pozur. Hərbi, siyasi və mülki təsir alətləri bu konsepsiya daxilində bir-biri ilə sıx bağlı olur.

Hibrid xarakterli müharibələrlə hüquq arasında əlaqənin olmadığını bəyan edən türkiyəli tədqiqatçı ehtiyatda olan general-mayor Dr. Fahri Erenelin fikrincə, müharibədə hansi tərəf kifayət qədər təmkin nümayiş etdirərsə, qalib tərəfin də məhz o olacağını bildirir. Dünya dövlətləri öz təhlükəsizliklərini təmin etmək üçün daim axtarışdadırlar, terrorçu qüvvələr də sakit dayanmırlar. İŞİD və ona bənzər terror qrupları həm müasir döyüş vasitələrinə, həm də şəxsi heyətə və kriminal iqtisadiyyata malikdirlər. Bununla belə öz planlarını gerçəkləşdirmək üçün müxtəlif hiyləgər yollara əl atırlar. Dövlətlər Cenevrə qanunlarına əməl edəcəklərinə sadiqlik nümayiş etdirsələr də, hibrid müharibə qaydalarına riayət etməkdən çox-çox uzaqdırlar [Hibrid Savaş içindəyiz. (n.d.)].

Çünki belə müharibələr qanundankənar hesab edilir və onun tənzimlənməsində qanunlar yer almır.

Rusiyalı tədqiqatçı A.A.Bartoş isə qeyd edir ki, “hibrid müharibə” beynəlxalq hüququn “təcavüz” anlayışını müəyyən edən bütün normalarından yan keçməklə həyata keçirilir, belə bir müharibədə “ön” və “arxa cəbhə” anlayışları yoxdur. Bu fenomen gözlənilmədən nəyəsə nail olmaq, təşəbbüsü ələ keçirmək və diplomatik fəaliyyətlərdə istifadə olunan psixoloji üstünlüklər əldə etmək, kütləvi və sürətli məlumat, elektron və kiber əməliyyatlar, iqtisadi təzyiq ilə birlikdə hərbi və kəşfiyyat fəaliyyətinin ört-basdır edilməsi və gizlədilməsi məqsədi daşıyan hərbi və qeyri-hərbi alətlərdən istifadə edilən kompleks kampaniyadır [Бартош, 2017].

Tədqiqatçıların fikirlərindən aydın olur ki, “hibrid müharibə” kontekstində öz həllini gözləyən bəzi beynəlxalq hüquqi məsələlər mövcud ki, onların doğurduğu suallar aşağıdakılar hesab edilir:

-“hibrid müharibə”ni beynəlxalq hüquqi termin hesab etmək məqbuldurmu?

-əgər “hibrid müharibə” hüquqi mənada müharibədirsə, onun aparılması prosesini hüquqi çərçivəyə salmaq mümkündürmü?

-“hibrid müharibə”dən dəyən zərər beynəlxalq məsuliyyət üçün əsas sayıla bilərmi?

Kiberhücum BMT Nizamnaməsinin 51-ci maddəsi baxımından dövlətin özünümüdafiəsinin əsası hesab edilə bilərmi? [Сазонова, 2017, s.185].

Bütün bu sualların bir cavabı var: beynəlxalq mühit getdikcə daha çox hibrid xarakter alır. Beynəlxalq hüquq təhlükəsizlik, ədalət, əməkdaşlıq dəyərlərini təşviq etmək məqsədi daşıdığı halda, hibrid fəaliyyətlər əks rol oynayır.

Hibrid təhdidlər hüquqi boşluqdan istifadə edir, lakin bu təhlükələri aradan qaldırmaq üçün qanun lazımdır. Hibrid təhdidlərə qarşı mübarizə aparmaq üçün sosial maarifləndirmə zəruri olsa da, bu cür təhlükələrdən istifadə edən aktorlar qeyri-qanuni və qanuni olan sahələr arasında hərəkət etdiyi üçün qanun bu qeyri-müəyyənliyin aradan qaldırılmasında böyük əhəmiyyət kəsb edə bilər. Hibrid təhdidlərin xameleon mahiyyəti ona qarşı hətta beynəlxalq təşkilatların (BMT-nin 51-ci maddəsi və NATO-nun 5-ci maddəsi) kollektiv və fərdi özünümüdafiəsi zamanı gücdən istifadəsinə imkan vermir.

Hibrid müharibələr konsepsiyasına görə, yeni növ müharibələr həm dövlətlər, həm də qeyri-dövlət subyektləri tərəfindən aparıla bilər. Lakin, bir qayda olaraq, hibrid müharibələr bir növ simbiotik varlıqlar tərəfindən icra edilir. Qeyri-dövlət özəl aktyorları ilə yanaşı, bura birbaşa (xarici təzyiq vasitəsilə) və ya sponsor (açıq və ya gizli) kimi fəaliyyət göstərən dövlətləri də əhatə edir.

Hibrid müharibələrin qeyri-dövlət aktorlarına və bələdçilərinə media, terror təşkilatları, silahlı ekstremist qruplar, radikal siyasi müxalifət, üsyançı yarı-

hərbi qruplar, habelə digər aktorların çevrilmə şansı yüksəkdir. Bu müharibə iqtisadi sanksiyalar siyasətinə cəlb edilən maliyyə və iqtisadi strukturları da əhatə edə bilər. Belə müharibələrdə xüsusi xidmət orqanlarının rolunu da danmaq mümkün deyil.

Qeyri-müntəzəm təhdidlərin ən təhlükəli cəhətlərindən biri hibrid müharibə iştirakçılarının transormatiya və adaptasiya qabiliyyətinin yüksək olması ilə seçilir. Belə ki, qeyri-qanuni silahlı dəstələr yerli əhali ilə ünsiyyət qura, ekstremist təşkilatların nümayəndələri vətəndaş etirazlarına qoşula, mafioz strukturlar müəyyən hallarda hüquq-mühafizə orqanlarının adından çıxış edə bilər.

"Hibrid müharibədə" iştirak edən subyektlər dairəsinin genişliyi müvafiq dövlətə və onun ayrı-ayrı mühüm elementlərinə həm xaricdən, həm də daxildən təzyiq göstərməyə imkan verir.

"Hibrid müharibə" konsepti "hibrid təhdid" konseptindən meydana çıxıb. Dövlət və qeyri-dövlət qruplarının hibrid fəaliyyəti dövrümüzün ciddi və aktual təhlükəsi kimi dəyərləndirilir. Bu tip təhdidlər dövlət və ya qeyri-dövlət subyektləri tərəfindən qeyri-qanuni (diplomatik, hərbi, iqtisadi və ya texnoloji) müdaxiləyə nail olmaq üçün müxtəlif tədbirlərin əlaqələndirilmiş şəkildə istifadəsi kimi xarakterizə olunur [Budaev, Demidov & Manoilo, 2015. s.173-174].

Bu elmi kateqoriyanın izahı təhdid və müharibə arasında fərqə görə müəyyən edilir. Təhdid hədəf ölkəyə ziyan vurma niyyət və vasitəsinin vəhdətinə söykənir və hədələyici xarakter daşıyır. Müharibə isə siyasi məqsədlərə nail olmaq üçün təşkil edilmiş silahlı zorakılıqdır. Deməli hibrid təhdid müəyyən edilmiş hədəfə qarşı məqsədyönlü və hədələyici xarakter daşıyan, ziyan vurma qabiliyyəti real olan kinetik və qeyri-kinetik vasitələrin məcmusudur.

Hibrid təhdidlərin anlayış aparatı bir qayda olaraq hədələyici xarakter daşıyan, ünvanlı və məqsədyönlü tətbiq edilən klassik və yeni nəsil təhlükələrin kombinasiyasıdır. ABŞ-ın 2005-ci ildə dərc edilmiş Milli Müdafiə Strategiyasında ilk dəfə olaraq milli təhlükəsizliyə təhdidlər dörd kateqoriyaya ayırlıb: ənənəvi, qeyri-qanuni, pozucu və fəlakətli [Department of Defense, USA. 2005].

Ənənəvi təhlükələr silahlı qüvvələri olan, lakin nüvə silahına malik olmayan dövlətlərdən gəlir.

Qeyri-ənənəvi çağırışlar terrorizm və üsyançı qruplardan istifadə edən dövlətlərdən və qeyri-dövlət aktorlarından, habelə cinayət fəaliyyətləri (piratçılıq, narkotik ticarəti, silah alveri və s.) həyata keçirməkdən irəli gəlir.

Fəlakətli təhlükələr kütləvi qırğın silahlarının (KQS) yayılması ilə bağlıdır və dövlətlər və qeyri-dövlət subyektləri tərəfindən kütləvi qırğın silahlarının əldə edilməsi, saxlanması və istifadəsini nəzərdə tutur. Bu təhdidlər kateqoriyasına həmçinin nəticələri KQS-ın tətbiqi ilə müqayisə oluna bilən pandemiyalar və təbii fəlakətlər də daxildir.

Dağıdıcı təhdidlər yeni texnologiyalardan hərbi məqsədlər üçün istifadə edən dövlətlərdən və qeyri-dövlət subyektlərindən gəlir. Bu, biotexnologiya, kiber texnologiya, lazer silahları və kosmik silahlar ola bilər.

Qeyd edilən təsnifatda ənənəvi təhdidləri çıxmaq şərtilə digərlərində yumşaq gücün tətbiqi üstünlük təşkil edir və dağıdıcılıq gücünə görə heç də ağır vasitələrin törədə biləcəyi faciələrdən geri qalmır.

Hibrid təhdidlərə verilən təriflər arasında oxşarlıqlar kifayət qədərdir: məsələn, onların hamısı hibrid təhlükələri cəmiyyətləri sarsıtmaq üçün hərbi və qeyri-hərbi vasitələrin birgə istifadəsi kimi təsvir edir. Rusiyalı tədqiqatçı A.A.Bartoşun fikrincə, “Hibrid təhlükələr özünə müxtəlif növ təhdidləri daxil edir: ənənəvi, qeyri-standart, genişmiqyaslı terrorizm, habelə üstün hərbi gücə qarşı texnologiyaların iştirakı ilə gerçəkləşən təxribat xarakterli hərəkətlər. Hibrid təhdidlər hədəf dövlət və konkret siyasi vəziyyət üçün planlaşdırılır, ciddi məqsədyönlü və adaptiv xarakter ilə diqqəti cəlb edir. Ümumilikdə belə təhdidlər konkret ölkə üçün hazırlanır. Bu xüsusiyyət hibrid təhlükələrə “unikal sinerji” verir və onların güclü dağıdıcı potensialını müəyyən edir [Бартош, 2014].

“Hibrid Təhdidlərə Qarşı Mübarizə üzrə Aİ Birgə Çərçivə sənədi”ndə hibrid təhdidlər dövlətlər və qeyri dövlət aktorları tərəfindən həyata keçirilən çevik, təbiəti dəyişkən və əlaqələndirilmiş güc adı altında təqdim edilən, məcburi və təxribatçı xarakter daşıyan adi və qeyri-klassik metodların (diplomatik, hərbi, iqtisadi, texnoloji) qatışığı kimi təqdim edilir [Zandee, van der Meer, & Stoetman, 2021. s.44].

NATO-nun da problemə şərhi fərqli deyil: “*Hibrid təhdidlər dezinformasiya, kiberhücumlar, iqtisadi təzyiq, nizamsız silahlı qrupların yerləşdirilməsi və nizami qüvvələrin istifadəsi daxil olmaqla, hərbi və qeyri-hərbi, eləcə də gizli və aşkar vasitələri birləşdirir. Hibrid üsullar müharibə və sülh arasındakı sərhədləri aradan qaldırmaq və hədəf əhalinin şüurunda şübhə oyatmağa cəhd etmək üçün istifadə olunur. Onların məqsədi cəmiyyətləri sabitsizləşdirmək və sarsıtmaqdır*” [Zandee, van der Meer, & Stoetman, 2021. s.44].

“Hibrid müharibələr” özündə qarşılıqlı asılılığın konfrantasiyalı xarakterini əks etdirir, köhnə nəsil müharibələr ilə yeni nəsil müharibələr arasında fərqi qabardır. Rus alimi P.Vinoqradov “hibrid müharibəni” ənənəvi simmetrik müharibənin andipodu kimi xarakterizə edirək qeyd edir ki: “nizami orduların geniş hərbi əməliyyatlar teatrında üz-üzə gəldiyi savaşlar geridə qaldı. Bu gün döyüş meydanında Silahlı Qüvvələr ilə yanaşı kriminal strukturlara: “yaraqlılara”, “üsyançılara”, “terrorçulara” və özəl hərbi kampaniyalar qarşı hərbi əməliyyatlar aparmaq lazım gəlir. Həmin cinayətkar qruplar yaxşı silahlanıb və son dərəcə qəddar da olsa, kifayət qədər ağıllı hərəkət edir. “Hibrid müharibə” - adi, kiçik və kiber müharibəni birləşdirən hərbi strategiyadır. Bu termindən həmçinin nüvə, bioloji və kimyəvi silahlardan,

əldəqayırma partlayıcı qurğulardan istifadə edilən hücumları və informasiya müharibəsini təsvir etmək üçün də istifadə olunur [Виноградов, 2014].

“Hibrid müharibə” konvensional və qeyri-konvensional savaş formalarının sinxron tətbiq strategiyası kimi dəyərləndirilir. Siyasi elmlər doktoru A.B.Manoylo öz tədqiqatlarında bu nəticəyə gəlir ki, “hibrid müharibələr düşməni məğlub etmək və qalibin şərtləri ilə onu sülhə məcbur etmək məqsədi güdən müasir müharibələrin müxtəlif növləri: ənənəvi, informasiya, ideoloji, iqtisadi və s. üçün xarakterik olan strategiyaların birgə istifadəsini nəzərdə tutur. Eyni zamanda, “hibrid müharibələr” həm ənənəvi formada (cəbhə xəttinin, müxtəlif dərinliklərdəki arxa xətlərin mövcudluğunu və nizami ordunun hərəkətlərini nəzərə alaraq), həm də cəbhə xəttinin olmadığı şəbəkə mərkəzli formada aparıla bilər” [Манойло, 2015. s.21].

Zəfər Nəcəfov və Piotr Qavliçek birgə hazırladıqları “İkinci Qarabağ müharibəsinin əlamətləri beşinci nəsil müharibələr üçün xarakterikdir” adlı məqalədə hibrid müharibənin xarakterik xüsusiyyətlərini İkinci Qarabağ müharibəsi kontekstində beşinci nəsil müharibələrə xas olan əlamətlər fonununda izah etməyə çalışıb. Onlar, beşinci nəsil müharibələri kinetik və qeyri-kinetik qabiliyyətlərin sinxron tətbiqinin məhsulu kimi təqdim edir [Najafov & Gawliczek,. 2023, s.22].

“Hibrid müharibə” hərbi və qeyri-hərbi xarakterli təhdidlərin geniş diapazonundan yararlanır. Hollandiyalı general F.Kappanın fikirincə, “hibrid müharibə” klassik müharibənin aparılması metodlarının qeyri-nizami silahlı birləşmələrin istifadəsi ilə qarşığıdır. “Hibrid müharibə” aparan dövlət qeyri-dövlət aktorlarla – yaraqlılar, yerli əhali qrupları və təşkilatları ilə işbirliyi yaradır və formal olaraq bu əməkdaşlığı qəti şəkildə təkzib edir. Həmin qüvvələr Cenevrə Konvensiyalarına riayət etmək məcburiyyətində qalan dövlətdən fərqli olaraq, bütün qanunsuz hərəkətlər etməkdən çəkinmirlər. Belə demək mümkünsə, bütün çirkli işlərə görə məsuliyyət qeyri-dövlət icraçıların üzərinə düşür [Каппа, 2014].

“Hibrid müharibələr” son dərəcə neqativ hadisə kimi qələmə verilir. “Hibrid müharibələr” dominant gücə və onun dəstəklədiyi dünya nizamına qarşı birbaşa fəaliyyət göstərə bilməyən və buna görə də gizli fəaliyyətə üstünlük verən aktorların silahı hesab edilir. Belə müharibələr siyasi və transmilli qrupların yerli maraqlarını reallaşdırmaq üçün aparılır. “Hibrid müharibənin” planlaması və aparılması texnologiyasının bütün böyük və regional dövlətlər üçün praktiki baxımdan eyni mahiyyət kəsb edir və informasiya-təbliğat kompaniyasının köməyi ilə dövlətin daxili-siyasi həyatında məqsədyönlü sabitsizliyə xidmət edir” [Ларина].

Hibrid müharibə sosial təhlükəsizliyə pozucu təsir göstərir və ölkədə daxili siyasi gərginliyin eskalasiyasına səbəb olur. Bu məqsədlə hibrid müharibə əsasən aşağıdakı imkanlardan istifadə edir: siyasi qeyri-sabitlik, sosial-iqtisadi

bərabərsizlik, nəzarətsiz sərhədlər, etnik separatizm, mütəşəkkil cinayətkarlıq, korrupsiya, ədalətsizlik. Hibrid müharibədə xarici qüvvələr daxili aktorlarla sinxron hərəkət edir. Bu əməkdaşlığın qarşısı alınmazsa, xarici və daxili təhdidlər birləşərək düşmən tərəflərin ortamüddətli məqsədlərinin gerçəkləşməsinə xidmət edə bilər. Məsələn, siyasi və hərbi rəhbərliyin nüfuzdan salınması və ya etnik və dini qruplardan istifadə edərək parçalanmaların yaradılması düşmən dövlətin öz siyasi və hərbi məqsədlərinə çatmasına şərait yaradır [Iskandarov, Gawliczek & Akbarov,. 2021. s.74].

“Hibrid müharibə” ilə əlaqəli təriflər arasında rusiyalı tədqiqatçı E.S.Larinanın mövqeyi təqdim edilmiş fikirlərdən fərqli görünür. “Hibrid müharibə”ni dövlətlər və ya digər silahlı qruplar arasında münaqişədən daha geniş anlayış kimi xarakterizə edən tədqiqatçı onu müxtəlif hibrid konflikt formalarının tətbiqi kimi dəyərləndirir. Bu xüsusilə ona görə məntiqlidir ki, müharibə həm dövlətlər, həm də qeyri-dövlət qüvvələri ilə aparıla bilər [Ларина, (n.d.)].

Yuxarıdakı misallardan belə nəticə hasil olunur ki, hibrid texnologiyaların istifadə edildiyi “hibrid müharibələr” klassik müharibələr kimi aqressiv xarakter daşıyır və müvafiq olaraq, müharibə qanunlarını (Cenevrə Konvensiyaları) birbaşa pozmadan, hibrid texnologiyalardan istifadə edərək istənilən qüvvəni məğlub etmək üçün nəzərdə tutulub. Belə demək mümkündürsə, hiibrid müharibələr sərəncamında olan vasitələrdən həm legitim, həm də qeyri-letigim formada istifadə etmək məharətinə malikdir.

Belə müharibələr çoxsaylı itkilər, infrastrukturun dağılması, qaçqınların ölkəni tərk etməsi ilə müşayiət olunur. Bu gün belə vəziyyətə özəl hərbi şirkətlərin, xüsusi təyinatlıların, terrorçu qrupların, partizan qruplarının cəlb olunduğu və hərbi və qeyri-hərbi texnologiyaların tətbiq olunduğu Əfqanıstan, Suriya, İraq, Ukrayna, Yaxın Şərqdə rast gəlinir. Ona görə də müasir “hibrid müharibələr”də düşmənə qarşı qeyri-zorakı təsir üsulları zorakı vasitələrlə zənginləşir, müharibələrin həqiqi məqsəd və vəzifələri maskalanır, rəqiblər bir-biri ilə tet-a-tet savaş aparmır, ümumiyyətlə qarşılıqlı əlaqədə olmurlar.

Müasir mərhələdə “hibrid müharibələr”dən əsasən öz geosiyasi və geoiqtisadi maraqlarının gerçəkləşməsində bir-biri ilə ədavət aparan və ya düşmənçilik edən fövqəl və regional güclər dağıdıcı silah kimi istifadə edir. Bu tip müharibələr ilk növbədə, zəngin təbii və enerji ehtiyatlarına (neft, qaz) malik, əsas nəqliyyat marşrutlarına yaxın yerləşən və qeyri-sabit daxili siyasi şəraitin hökm sürdüyü ölkələr uğrunda gedən geosiyasi rəqabətin əsas silahı hesab edilir. Hazırda Rusiya-Qərb arasında Ukrayna üğrunda kəskinləşən və qütbləşən qarşıdurmanın forması “hibrid müharibə”dir. Həmin “hibrid müharibədə” əsas xüsusiyyət, vahid qlobal məkanın ən müxtəlif seqmentlərini: informasiya, iqtisadi, maliyyə, texnoloji və s. əhatə edən qarşıdurmanın çoxşaxəli xarakteridir [Тренин, 2019].

"Hibrid müharibələr" mərkəzsizləşdirilmiş fenomen kimi xarakterizə edildiyindən ona bütöv hadisə kimi baxmaq mümkün deyil. Bu fikri onun çoxtərkibli və çoxaktorlu xarakterə malik olması ilə əlaqələndirmək olar.

XXI əsrdə müharibələrin təkamülünə yeni texnologiyalar ciddi təsir göstərir. Adi təkərədən tutmuş müasir informasiya-kommunikasiya texnologiyalarının kəşfinədək bəşəriyyətin nail olduğu nailiyyətlərin kökündə hərbi məqsədlər dayanır. Müasir informasiya-kommunikasiya texnologiyaları hesabına "müharibələr informasiyalaşır", hərbi əməliyyatlar fiziki döyüş səhnələrinin KİV-də işıqlandırılması hesabına populyarlaşır.

Dünyada informasiya cəmiyyətinin inkişafı ilə "yumşaq güc" anlayışında mərkəzi yer tutan informasiyanın rolu artır. İnformasiya bəşəriyyətin tərəqqisi üçün bir vasitədir və çoxlu imkanlar açır. Bununla belə, informasiya və psixoloji təsir üsulları, metodları və texnologiyalarının ixtirası ilə o, rəqibə qarşı "informasiya hücumunu" həyata keçirən geosiyasi silaha çevrilir.

Bu gün KİV dövlətin Hərbi Sənaye Kompleksinin (HSK) mühüm elementinə çevrilməklə, "soyuq müharibə" dövründə "atom bombası"nın təhdidedici rolunu əlindən alaraq, onu "informasiya bombası" ilə əvəzləməyə çalışır. Coğrafiya, demoqrafiya və resurs amillərinin əhəmiyyətinin azalması fonunda informasiyanın rolu durmadan yüksəlir. Hərbi texnologiyaya malik olanlar qələbə qazanır, tapşırıqları daha tez yerinə yetirməyə müvəffəq olur. Bu sadalananlar informasiya amilini (informasiya müharibəsini) "hibrid müharibə"nin əsas komponentinə çevirir.

Düşmən ölkənin əhalisinin və silahlı qüvvələrinin şüuruna və psixikasına saxta məlumat və dezinformasiya ilə təsir edilir, onların həyat qabiliyyətinin məqsədyönlü şəkildə pozulmasına cəhd edilir. Məhz bu səbəbdən "hibrid müharibə"nin informasiya komponenti böyük təsir gücünə malikdir. Hibrid müharibədə düşmənin təslim olmasında informasiya əməliyyatlarının rolu əvəzsizdir. Hərbi əməliyyatlar informasiya müharibəsinin təşkilatçılarının piar-kompaniyası üçün servis rolunu icra edir. Belə kompaniyalar düşmənin şüuruna informasiya hücumları üçün son dərəcə vacibdir. Əfqanıstan, Suriya, İraq və s. münaqişələrdə hərbi əməliyyat süjetlərindən piar-kompaniya və "sabun operası" qismində istifadə edilməsi hallarına çox rast gəlinib.

İnformasiya amili "hibrid müharibələrin" yardımçı aləti kimi çıxış edir və bütün digər alətlərə sıx əlaqədə olur. "Hibrid müharibəni" "hibrid informasiya müharibəsi" kimi qələmə verməyə təklif edən H.H.Poçepovun sözlərinə görə, fiziki fəaliyyətlərin maskalanması səbəbindən informasiya fəaliyyətlərinin statusu artmaqdadır [Почепцов, 2016].

Həqiqətən informasiya dəstəyi olmadan "hibrid müharibənin" heç bir texnologiyasını/alətini realizə etmək olmaz.

"Yumşaq güc"ün hərbi-siyasi proseslərdə eskalasiya aləti kimi tanınması Ərəb baharı hadisələrində özünü daha dərindən büruzə verdi. Həmin

proseslərin radikallaşmasında, daxili ixtişaşların genişlənməsində və xarici müdaxilələrə gətirib çıxarmasında, həmçinin siyasi rejimlərin dəyişdirilməsində “Feysbuk inqilabı” və ya “Tvitter inqilabı” çevriliş və ya demontaj silahı kimi mühüm rol oynadı.

“Hibrid müharibə” eyni zamanda etnik və dini identiklikləri səfərbər etmək etmək iqtidarındadır. Bu identikliklər polietnik regionlarda və ölkələrdə etnoseparatizmin siyasi, ideoloji dayaqları, multikuralizmin əleyhidarı hesab edilir. Etnik və dini identikliklərin konfliktogen mahiyyəti hibrid müharibələrin davamlı və üzünömürlü olmasını xarakterizxə edir. Belə müharibələrdə diasporlar, etnik və dini icmalar “beşinci kolona” çevrilməklə eskalasiyanın, separatizm və irredentizmin əsas bələdçisi hesab edilir.

“Yumşaq güc”ün hibrid münaqişələrin eskalasiyasında rolu “idarə olunan xaos”, “rəngli inqilab” və “Boz zona” kimi texnologiyalar və strategiyalarla sıx bağlıdır. Əvvəlki paraqrafda “Boz zona” istisna olunmaqla digərləri barədə bəhs edilib. Qeyd edilən strategiyalar bir-birini tamalayır. Məsələn, “idarə olunan xaos”un əsas məqsədi düşmən/rəqib ölkəni sabitsizləşdirmək, oranın siyasi suverenliyini və ərazi bütövlüyünü zəiflətmək üçün “boz zonlar” yatarmaq və habelə siyasi rejimə və sistemə qarşı “rəngli inqilab” həyata keçirməkdir. Hibrid təhdidlər, adətən, “boz zona” sərhədlərində qalır və hədəf ölkə bunu çevik aşkarlama qabiliyyətinə malik olmur. Yəni təhdid yaradan ölkə öz maraqlarına uyğun olmadığı təqdirdə həmin təhdidin eskalasiyasını istəmir [İskəndərov, 2021, s.46].

“Hibrid müharibələr” müəyyən ərazilərdə uzunmüddətli idarəolunan xaos ssenarisinə əsaslanan süni vəziyyət yarada bilər. Belə ssenarilər sərhədyanı dövlətlərin ərazisində silahlı münaqişələri tətikləyə və ya gələcəkdə həmin ərazilərin hərbi poliqona çevrilməsi üçün zəmin yarada bilər. Azərbaycanlı tədqiqatçılar H.Həsənov və F.Ələkbərov haqlı olaraq qeryd edirlər ki, hibrid müharibə strategiyasının mühüm tərkib hissəsini sərhədyanı və strateji əhəmiyyətli bölgələrdə lokal münaqişələrə səbəb olmaq, təxribatçı ssenarilərlə sərhəd yaxınlığında genişmiqyaslı hərbi təlimlər keçirmək təşkil edir. Beşinci kolon və casus şəbəkələrinin imkanlarından istifadə etməklə dövləti həddən artıq ağır hərbi xərclərə çəkərək, onun iqtisadiyyatını zəiflətmək də hibrid müharibə elementlərindən hesab edilə bilər [Həsənov, & Ələkbərov, 2023. s.47].

Ölkənin siyasi sferasında “nəzarət olunan xaos” geosiyasi doktrinası aşağıdakı fəaliyyət tsiklinə uyğun reazlizə edilir: birincisi, legitim hakimiyyət ətrafında narazı siyasi qüvvələri birləşdirmək; ikincisi, ölkə rəhbərliyinin özünün güc sektoruna inamını sarsıtmaq; üçüncüsü, ölkədə vəziyyəti xarici agentlərin əli ilə sabitsizləşdirmək, etiraz aksiyalarını genişləndirmək, hakimiyyətə inamsızlıq hissi yaratmaq; dördüncü, “demokratik” seçkilər,

silahlı üsyanlar və digər metodlarla hakimiyyət dəyişikliyinin təmin etmək [Иванов, 2017, s.169-171].

"Boz zona"ya gəlincə, belə ərazilər hibrid müharibələrin aparılması üçün əlverişli əməliyyat zonası hesab edilir. Hərbi və mülki təhdidlərin uzlaşmasını özündə əks etdirən belə ərazilər [Кулагин, 2012. s.67] daim təhdid mənbəyi kimi istifadə edilir, qeyri-siyasi təhdidlərdən gəlir əldə edilməsi üçün cinayətkar işbirliyi ilə müşayiət olunur. "Boz zona"larda mülki təhdidlər dinamizminə və davamlığına görə seçilir, mütəmadi şəkildə inkişaf etdirilir və hərbi təhdidlərin varlığının saxlanılması üçün əlverişli zəmin yaradır.

"Boz zona" münaqişəsi ilə hibrid müharibəni eyniləşdirmək olmaz. "Boz zona" münaqişəsinin strateji məqsədləri hibrid müharibənin taktiki əməliyyatları ilə sinonim deyil. "Boz zona"nın təcavüzkar aktorları ilk növbədə dövlət səviyyəsində ənənəvi təcavüz sayılmayan qeyri-ənənəvi taktikalardan istifadə edirlər. Hibrid müharibədə isə iştirakçılar qeyri-qanuni vasitələrlə yanaşı açıq güc tətbiqinə də müraciət edirlər [Iskandarov, & Gawliczek, 2020. s.2].

Adətən "boz zona" ərazilərin yaradılması hədəf dövlətə qarşı hərbi-siyasi təzyiqlərin davamlı xarakter alması, onun inkişafına mane olmaq, həmin ərazilərdə qeyri-konvensional təhdidləri merkantilist məqsədlər üçün istifadə etmək və belə əraziləri habelə rəqib regional güclərin sərhədləri yaxınlığında formalaşdırmaqla onlara qarşı plasdarm kimi istifadə etməyə hesablanır.

Cənubi Qafqaz "soyuq müharibə"nin başa çatmasından sonra müxtəlif regional və transregional güclərin maraqlarının üst-üstə düşdüyü "boz zona"ya çevrilmişdir. Bu illər ərzində Azərbaycan Respublikası müntəzəm olaraq hibrid təhdidlərə məruz qalmışdır. Həmin təhdidlər Ermənistanın ekspansionizm və İranın "islam inqilabının ixrac"ı siyasətindən, neft-qaz boru kəmərləri infrastrukturuna qeyri-dövlət aktorlarının hücumlarından və işğal altında olan torpaqlarda mütəşəkkil cinayətkar qrupların qeyri-qanuni fəaliyyətlərindən (narkotiklərin becərilməsi və daşınması, insan və silah alveri, terrorçülar üçün təlim düşərgələrinin salınması və s) qaynaqlanıb. Bundan əlavə, Azərbaycanın informasiya məkanı müntəzəm olaraq Ermənistan və İran istiqamətindən informasiya hücumlarına məruz qalıb. Bu azmış ki, hətta 44 günlük müharibədən sonra da bəzi qüvvələr Azərbaycan ərazisində "Boz zona" saxlamağa çalışsalar da birgünlük antiterror əməliyatı onların arzusunu ürəyində qoymuş oldu.

4.Nəticə

Məqalənin sonunda aşağıdakı nəticələrə gəlinib:

4.1.XXI əsrdə qlobal proseslərin məntiqi belə deməyə əsas verir ki, təhlükəsizlik kompleks xarakter daşıyır. Onun təmin edilməsində ənənəvi təsəvvürlər getdikcə öz rolunu itirməkdədir. Belə ki, müasir şəraitdə təhlükəsizlik məsələri sırasına yalnız hərbi və hərbi-texniki aspektlər deyil,

eləcədə daha geniş əhatəli məsələlər: iqtisadiyyat, ekologiya, energetika, miqrasiya, ərazaq və s-ri daxil edilir. Məhz bu səbəbdən ölkənin təhlükəsizliyinin daha etibarlı şəkildə təmin edilməsi “sərt” və “yumşaq güc” vasitələrinin vəhdəti hesabına təmin edilir. Milli sərhədlərin şəffaflaşdığı, qloballaşma şəraitində daxili aləm ilə xarici mühit arasında qarşılıqlı asılılığın güclənməsi milli təhlükəsizliyin təmin edilməsi prosesində «sərt» və «yumşaq güc» vasitələri arasında qarşılıqlı təsiri daha da dərinləşdirəcək.

4.2.“Hibrid müharibə” olduqca geniş və vahid elmi tərifə yatmayan bir anlayışdır, bu istiqamətdə ciddi konseptual boşluqlar mövcuddur. Nə beynəlxalq miqyasda, nə də yerli müstəvidə ona qarşı vahid şəkildə mübarizənin normativ-hüquqi bazası mövcud deyil. “Hibrid müharibə” klassik müharibəyə zidd savaş fəlsəfəsidir. O, “Klauzeviç irsi”nin demontajı üzərində bərqərar olub. Bu tip müharibələr təcavüzkarı cilovlayan və ona qarşı sanksiya rejimindən yayınmağa imkan verir. Bu prosesdə qloballaşmanın və texnoloji tərəqqinin rolu inkaredilməzdir.

4.3.“Hibrid müharibə” zamanı hərbi vasitələrlə yanaşı, “yumşaq güc”lə əlaqəli geniş vasitələr dəstindən istifadə edilir; düşmənə qarşı mübarizədə hərbi və qeyri-hərbi alətlər bir-birini tamalayır; düşmənə qarşı mübarizədə bütün vasitələrin və domenlərin (yer, hava, su, kiber, kosmos) sunxron istifadəsi həyata keçirilir; qeyri-hərbi vasitələri “hibrid müharibənin” daha fəal aləti olaraq hərb və sülh vəziyyətini pozur; düşmən ölkənin cəmiyyətinin və əhalisinin “beyinlərinin yuyulmasında” müasir informasiya texnologiyalardan geniş istifadə edilir; informasiya - psixoloji təsir hesabına düşmənin Silahlı Qüvvələrinin mənəvi-psixoloji durumunun sarsıdılması istiqamətində vacib işlər görülür; rəqib ölkənin idarəetmə sisteminin fəaliyyət qabiliyyətini iflic etmək, onun struktur elementlərinin arasında qarşılıqlı təsiri pozmağa cəhd edilir; dolayı fəaliyyətlər yolu ilə ölkə daxilində vətəndaş həmrəyliyinin sarsıdılmasına, hakimiyyətə qarşı daxili müqavimətin təşkil və təchizinə nail olunmağa çalışılır; daxili ixtişaşlar xarici təlimat əsasında idarə edilir; narazılığın sosial-iqtisadi əsasları gücləndirilir, etiraz hərakatının lozunquna çevirilir; separatçı və terror təşkilatlarının yaradılması və dəstəklənməsi, “partizan” müharibələrinin qızışdırılması, cəmiyyətin kriminallaşdırılması həyata keçirilir.

ƏDƏBİYYAT

1. Бартош, А. А. (2018). Стратегия и контрстратегия гибридной войны. *Геополитика и безопасность, 10* 5-20 https://cyberleninka.ru/article/n/strategiya-i-kontrstrategiya-gibridnoy-voyny/viewer

2. Iskandarov, K., & Gawliczek, P. (2020). Hybrid warfare as an instrument of political leverage (With a special focus on the South Caucasus). In M.

Banasik, P. Gawliczek, & A. Rogozinska (Eds.). Warsaw: Difin Publishing House, *The Russian Federation and international security*, 169-180.

3. Hoffman, F. (2007). *Conflict in the 21st century*. Arlington, VA: Potomac Institute for Policy Studies, p. 28.

4. Məmmədzadə, V. M., & İskəndərov, X. İ. (2020). *Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri*. Bakı: UNICOPY, 145 s.

5. *Hibrid Savaş içindəyiz*. (n.d.). Retrieved from https://www.memurlar.net/haber/636566/

6. Бартош, А. А. (2017). Смыслы гибридной войны. https://nic-pnb.ru/vneshnepoliticheskie-aspekty-bezopasnosti/smysly-gibridnoj-vojny/

7. Сазонова, К. Л. (2017). «Гибридная война»: международно-правовое измерение. *Право. Журнал Высшей школы экономики*, (4), 177-187. https://doi.org/10.17323/2072-8166.2017.4.177.187

8. Budaev, A. V., Demidov, A. V., & Manoilo, A. V. (2015). *«Мягкая сила» в мировой политической динамике: уч.-метод. пособие*. Москва: Издательство «Известия», 207 с.

9. Department of Defense, USA. (2005). *The National Defense Strategy of The United States of America*. Retrieved from http://www.defense.gov/news/Mar2005/d20050318nds1.pdf

10. Бартош, А. А. (2014). Цветные революции как составная часть «гибридных войн». Retrieved from http://vpoanalytics.com/2014/10/26/cvetnye-revolyucii-kak-sostavnaya-chast-gibridnyx-vojn/

11. Zandee, D., van der Meer, S., & Stoetman, A. (2021). *Countering hybrid threats: Steps for improving EU-NATO cooperation*. Netherlands Institute of International Relations Clingendael, 44 p.

12. Виноградов, П. (2014). Эпоха сетецентрических и гибридных войн. *Военно-политический журнал Комдива-25*. Retrieved from https://vasilii-ch.livejournal.com/184043.html

13. Манойло, А. В. (2015). Гибридные войны и цветные революции в мировой политике. *Право и политика*, 7 (187), 1-21. https://doi.org/10.7256/1811-9018.2015.7.15832

14. Najafov, Z., & Gawliczek, P. (2023). The signs of Second Karabakh War typical of the 5th generation war. *Civitas et Lex*, *2*(38), 10-30. https://doi.org/10.31648/cetl.8652

15. Каппа, Ф. (2014). Путин ведет в Украине гибридную войну. Retrieved from http://ipress.ua/ru/mainmedia/putyn_vede_t_v_ukrayne_gybrydnuyu_voynu_61876.html

16. Ларина, Е. С. (n.d.). *Мировойна. Все против всех.* Retrieved from http://readli.net/mirovoyna-vse-protiv-vseh/
17. Iskandarov, K., Gawliczek, P., & Akbarov, M. (2021). Characteristics of hybrid warfare: Retrospective analysis. In *Conflict analysis: Political-psychological and socio-economic aspects*. International collection of the papers of the scientific-practical conference. Tbilisi: Lepl-David Aghmashenebeli National Defence Academy of Georgia, 72-75.
18. Тренин, Д. (2019). *От гибридной войны к взаимному отстранению: Как изменяется отношения России и США за 20 лет.* https://russiancouncil.ru/analytics-and-comments/comments/ot-gibridnoy-voyny-k-vzaimnomu-otstraneniyu-kak-izmenyatsya-otnosheniya-rossii-i-ssha-za-20-let/
19. Почепцов, Г. Г. (2016). *Пять новых направлений трансформации информационной войны: реализованные подходы.* https://psyfactor.org/psyops/infowar47.htm
20. İskəndərov, X. (2021). Hibrid təhdidlərin qabaqcadan müəyyənləşdirilməsinin hibrid müharibənin qarşısının alınmasında rolu. *Milli Təhlükəsizlik və Hərbi Elmlər*, *2*(7), 45-53.
21. Həsənov, H., & Ələkbərov, F. (2023). Hibrid müharibələrin elmi-metodoloji təhlili. *Milli Təhlükəsizlik və Hərbi Elmlər*, *1*(9), 43-48.
22. Иванов, О. Б. (2017). «Мягкая сила» и эскалация социально-политических конфликтов. *Дискурс-Пи*, (3-4), 175-182. https://doi.org/10.17506/dipi.2017.2829.34.175182
23. Кулагин, В. М. (2012). *Современная международная безопасность*. Москва: КНОРУС, 432 с. ISBN 978-5-406-01771-5 https://doi.org/10.15216/9785406017715
24. Iskandarov, K., & Gawliczek, P. (2020). *Hybrid warfare as a new type of war: The evolution of its conceptual construct.* In M. Banasik, P. Gawliczek, & A. Rogozinska (Eds.). Warsaw: Difin Publishing House, *The Russian Federation and international security*, 96-107.

REFERENCES

1. Bartosh, A. A. (2018). *Strategy and counter-strategy of hybrid warfare. Geopolitics and Security*, 10, 5-20. Retrieved from https://cyberleninka.ru/article/n/strategiya-i-kontrstrategiya-gibridnoy-voyny/viewer (In Russian).
2. Iskandarov, K., & Gawliczek, P. (2020). *Hybrid warfare as an instrument of political leverage (With a special focus on the South Caucasus).* In M. Banasik, P. Gawliczek, & A. Rogozinska (Eds.). Warsaw: Difin Publishing House, *The Russian Federation and international security*, 169-180. (In English).

3. Hoffman, F. (2007). *Conflict in the 21st century*. Arlington, VA: Potomac Institute for Policy Studies, p. 28. (In English).

4. Mammadzadeh, V. M., & Iskenderov, K. I. (2020). *Regional aspects of the national security of the Republic of Azerbaijan.* Baku: UNICOPY, 145 p. (In Azerbaijani).

5. *We are in hybrid warfare.* (n.d.). Retrieved from https://www.memurlar.net/haber/636566/ (In Turkish).

6. Bartosh, A. A. (2017). *The meanings of hybrid warfare.* Retrieved from https://nic-pnb.ru/vneshnepoliticheskie-aspekty-bezopasnosti/smysly-gibridnoj-vojny/ (In Russian).

7. Sazonova, K. L. (2017). "Hybrid warfare": An international-legal dimension. *Law. Journal of the Higher School of Economics,* (4), 177–187. https://doi.org/10.17323/2072-8166.2017.4.177.187 (In Russian).

8. Budaev, A. V., Demidov, A. V., & Manoilo, A. V. (2015). *"Soft power" in global political dynamics: A study-methodological guide.* Moscow: Izvestiya Publishing, 207 p. (In Russian).

9. Department of Defense, USA. (2005). *The National Defense Strategy of The United States of America.* Retrieved from http://www.defense.gov/news/Mar2005/d20050318nds1.pdf (In English).

10. Bartosh, A. A. (2014). *Color revolutions as part of "hybrid wars."* Retrieved from http://vpoanalytics.com/2014/10/26/cvetnye-revolyucii-kak-sostavnaya-chast-gibridnyx-vojn/ (In Russian).

11. Zandee, D., van der Meer, S., & Stoetman, A. (2021). *Countering hybrid threats: Steps for improving EU-NATO cooperation.* Netherlands Institute of International Relations Clingendael, 44 p. (In English).

12. Vinogradov, P. (2014). *The era of network-centric and hybrid wars. Military-political journal of Komdiv-25.* Retrieved from https://vasilii-ch.livejournal.com/184043.html (In Russian).

13. Manoilo, A. V. (2015). Hybrid wars and color revolutions in global politics. *Law and Politics,* 7 (187), 1-21. https://doi.org/10.7256/1811-9018.2015.7.15832 (In Russian).

14. Najafov, Z., & Gawliczek, P. (2023). The signs of the Second Karabakh War typical of the 5th generation war. *Civitas et Lex, 2*(38), 10-30. https://doi.org/10.31648/cetl.8652 (In English).

15. Kappa, F. (2014). *Putin is leading a hybrid war in Ukraine*. Retrieved from http://ipress.ua/ru/mainmedia/putyn_vede_t_v_ukrayne_gybrydnuyu_voynu_61876.html (In Russian).

16. Larina, E. S. (n.d.). *World War: All Against All.* Retrieved from http://readli.net/mirovoyna-vse-protiv-vseh/ (In Russian).

17. Iskandarov, K., Gawliczek, P., & Akbarov, M. (2021). *Characteristics of hybrid warfare: Retrospective analysis.* In *Conflict analysis: Political-*

psychological and socio-economic aspects. International collection of papers from the scientific-practical conference. Tbilisi: Lepl-David Aghmashenebeli National Defence Academy of Georgia, 72-75. (In English).

18. Trenin, D. (2019). *From hybrid war to mutual estrangement: How Russia-U.S. relations have changed over 20 years.* Retrieved from https://russiancouncil.ru/analytics-and-comments/comments/ot-gibridnoy-voyny-k-vzaimnomu-otstraneniyu-kak-izmenyatsya-otnosheniya-rossii-i-ssha-za-20-let/ (In Russian).

19. Pocheptsov, G. G. (2016). *Five new directions of transformation of information warfare: Implemented approaches.* Retrieved from https://psyfactor.org/psyops/infowar47.htm (In Russian).

20. Iskenderov, K. (2021). The role of preemptive identification of hybrid threats in preventing hybrid warfare. *National Security and Military Sciences, 2*(7), 45-53. (In Azerbaijani).

21. Hasanov, H., & Alekberov, F. (2023). Scientific-methodological analysis of hybrid wars. *National Security and Military Sciences, 1*(9), 43-48. (In Azerbaijani).

22. Ivanov, O. B. (2017). “Soft power” and the escalation of socio-political conflicts. *Discourse-Pi,* (3–4), 175-182. https://doi.org/10.17506/dipi.2017.2829.34.175182 (In Russian).

23. Kulagin, V. M. (2012). *Modern international security*. Moscow: KNORUS, 432 p. ISBN 978-5-406-01771-5 https://doi.org/10.15216/9785406017715 (In Russian).

24. Iskandarov, K., & Gawliczek, P. (2020). *Hybrid warfare as a new type of war: The evolution of its conceptual construct.* In M. Banasik, P. Gawliczek, & A. Rogozinska (Eds.). Warsaw: Difin Publishing House, *The Russian Federation and international security,* 96-107. (In English).